

Moskvada Yeqor Şerbakovu öldürməkdə ittiham edilən Orxan Zeynalov kriminal aləmin “xaç atası” hesab edilən Ded Xasanın adamı Denis Panin ilə eyni otaqda saxlanılır.

Hər iki şəxs “Matros sakitliyi” adlandırılan təcridxanada xüsusi bölmədə saxlanılır.

3x5 metrlik yerdə onlarla bərabər daha 2 nəfər var. Onlardan biri qətldə şübhəli bilinən keçmiş polkovnik Vadim Tumanovdur. Məlumata görə, otaqda iki yaruslu bir yataq və iki adi yataq var.

O.Zeynalov yatağın ikinci yarusunda yatır. Otaqda unitaz və duş var. Hər gün təqsirləndirlən şəxslər hava almağa çıxarılır ki, bu da 1 saat davam edir. Qalan müddəti onlar otaqda televizora baxmaqla keçirirlər.

Qeyd edək ki, 35 yaşlı Denis Panin kriminal qruplaşmalardan birinin rəhbəri olan Aleksandr Abbasın oğurlanmasında ittiham edilir.